

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 166 (21.318)

26 avqust 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ordubad şəhərində görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin Ev Muzeyi istifadəyə verilmişdir






Avqustun 25-də Ordubad şəhərində görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin Ev Muzeyinin açılışı olmuşdur.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi geniş şəkildə qeyd olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Tədbirlər Planına əsasən maarifçi şairin yubileyi ilə əlaqədar təhsil və mədəniyyət müəssisələrində guşələr yaradılmış, Sidqinin yaradıcılığı tədqiq olunmuş, "Naxçıvan" jurnalının bir nömrəsi Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinə həsr edilmişdir. Eyni zamanda böyük maarifçi və ədibin doğulub boya-başa çatdığı Ordubad şəhərində ev muzeyinin yaradılması da qərara alınmışdı.

Ali Məclisin Sədri görkəmli maarifçinin ev muzeyinin açılışı münasibətilə tədbir iştirakçılarını və ziyalıları təbrik edərək demişdir: Məhəmməd Tağı Sidqi ilk təhsilini molla məktəbində almış, sonra isə mədrəsədə davam etdirmişdir. O, klassik Şərq poeziyasını və fəlsəfəsini mükəmməl bilirdi. Buna görə də bədii yaradıcılıqla məşğul olmuş, ədəbi dərnəklərdə, şeir məclislərində iştirak etmiş, ədəbiyyatın inkişafına çalışmışdır. Lakin xalq arasında təhsilə ciddi ehtiyac olduğunu görən Məhəmməd Tağı Sidqi 1892-ci ildə Ordubadda "Əxtər", 1894-cü ildə isə Naxçıvan şəhərində "Tərbiyə" məktəblərinin əsasını qoymaqla mənsub olduğu xalq qarşısında tarixi xidmətlər göstərmiş, sağlığında müasirləri tərəfindən "böyük ustad", "xalq müəllimi" adını almışdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur".***

Ali Məclisin Sədri demişdir: Məhəmməd Tağı Sidqi, hər şeydən əvvəl, böyük maarifçi idi. O, Azərbaycan məktəbdarlığında yeni ənənələrin əsasını qoymuş, milli təhsil tariximizdə özünə böyük abidə ucaltmışdır. O, məktəbə nur, işıq mənbəyi kimi baxmış, əsl səadəti məktəbdə, xalqın təhsillənməsində görmüşdür. Ustad müəllimin yaratdığı məktəblər Azərbaycan romantik dramaturgiyasının banisi Hüseyn Cavid, tarixi roman janrının banisi Məmməd Səid Ordubadi, realist Azərbaycan rəssamlığının banisi Bəhruz Kəngərli, böyük ədəbiyyatşünas alim Əziz Şərif, Azərbaycanın ilk peşəkar diplomatlarından olan İbrahim Əbilov kimi görkəmli şəxsiyyətlər yetişdirmişdir.

Qeyd olunmuşdur ki, Məhəmməd Tağı Sidqi təkcə maarif xadimi kimi deyil, həm də mütəfəkkir şair və publisist kimi də böyük şöhrət qazanmışdır. Onun şeirlərində dövrün ən qabaqcıl ideyaları öz əksini tapmışdır. Sidqinin müxtəlif vaxtlarda mətbuatda dərc olunmuş yazıları Azərbaycan bədii publisistikasının inkişafına əvəzsiz töhfələr vermişdir. Məhəmməd Tağı Sidqi deyərkən gözlərimiz önündə mənsub olduğu xalqın mədəni tərəqqisi naminə çalışan böyük ziyalı dayanır. O, bir tərəfdən xalq təhsilinin




inkişafı naminə mübarizə aparırdısa, digər tərəfdən ana dilinin saflığı, Naxçıvan teatrının inkişafı sahəsində də xidmətlər göstərirdi. Böyük maarifçi 1894-1899-cu illərdə Naxçıvanda "Dram Cəmiyyəti" üzvləri ilə birlikdə tamaşalar hazırlamış, bu tamaşalarda həm rejissor, həm də aktyor kimi çıxış etmişdir. Hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq Sidqi daim xalqının gələcəyini düşünmüş, dövrünün çatışmazlıqlarına qarşı mübarizə aparmış, əsl ziyalı mövqeyi göstərərək əqidəsindən dönməmişdir.

Ali Məclisin Sədri demişdir: Elm və təhsil yolunda çəkilən zəhmət heç vaxt hədər getmir. Məhəmməd Tağı Sidqi şəxsiyyətinin böyüklüyü də bundadır. Görkəmli pedaqoqun on doqquzuncu əsrin sonunda yandırdığı maarif çırağı bu gün də gənc nəslin yoluna işıq salır. O, bir pedaqoq kimi nəsihətlərində tərbiyəvi məqamlar aşılayır, gəncləri elmə, təhsilə, düzlüyə, etibarlılığa səsləyirdi. Sidqi deyirdi: "Dünyada insanın vücudunun səmərəsi elm ilə hasil olur. Elm və mərifətsiz insan meyvəsiz ağaca bənzər", "Dünyada əziz vaxtını bihudə keçirtmək insan üçün böyük bir müsibətdir", "Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır", "Elm bir ağacdır ki, onun səmərəsi əməl və ədəbdir".

Məhəmməd Tağı Sidqi yaradıcılığının böyük bir xəzinə olduğunu bildirən Ali Məclisin Sədri demişdir: Bu xəzinədən gəncliyin yetişməsində məqsədyönlü istifadə etmək təhsil müəssisələrinin və pedaqoji kollektivlərin borcudur. Bu gün Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin Ev Muzeyinin istifadəyə verilməsi də onun zəngin pedaqoji və ədəbi irsinin yaşadılması, bugünkü və gələcək nəsillərə çatdırılması istiqamətində atılan növbəti addımdır.

Ordubad rayon qəzetinin əməkdaşı Abbas Seyid çıxış edərək demişdir ki, muxtar respublikada xalqımızın görkəmli şəxsiyyətlərinin xatirəsinin əbədiləşdirilməsi və yubileylərinin qeyd olunması ənənə halını alıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə 2004-cü ildə Məhəmməd Tağı Sidqinin 150, 2014-cü ildə isə 160 illik yubileyləri qeyd olunub, görkəmli maarifçinin Ordubad şəhərində ev muzeyinin yaradılması qərara alınıb. Məhəmməd Tağı Sidqiyə ikinci ömür verən bu sərəncamlar həm də muxtar respublikada təhsilə, ədəbiyyata və görkəmli şəxsiyyətlərə göstərilən ehtiramın, diqqət və qayğının ifadəsidir.

Qeyd olunmuşdur ki, muxtar respublikada təhsil böyük qayğı ilə əhatə olunub. Təhsil infrastrukturu tamamilə müasirləşdirilib. Şəhər, rayon və kəndlərimizdə yeni məktəb binaları tikilərək istifadəyə verilib. Hər il uşaqlar üçün yeni ədəbiyyatlar nəşr olunur, savadlı, bilikli və vətənpərvər gənc nəsil yetişdirilir. XIX əsr Azərbaycan maarifçilik hərəkatının görkəmli nümayəndəsi Məhəmməd Tağı Sidqi də daim xalqının təhsillənməsi, savadlanması, gənclərin elmli və dünyagörüşlü olması naminə mübarizə aparırdı. Onun yeganə arzusu uşaqları təhsilli, bilikli və vətənpərvər görmək idi. Bu gün muxtar respublikada təhsilin səviyyəsinə, yetişən vətənpərvər və savadlı gəncliyə baxarkən görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin arzularının reallığa çevrildiyinin şahidi oluruq.

Ziyalılar adından minnətdarlıq edən Ordubad şəhər sakini, Naxçıvan Muxtar Respublikasının "Əməkdar mədəniyyət işçisi" Vilayət Bağırov demişdir ki, ümummilli liderimizin müəllifi olduğu siyasi xətt muxtar respublikada uğurla davam etdirilir. Bu gün Naxçıvanda digər sahələrlə yanaşı, təhsilin, ədəbiyyatın, mədəniyyətin inkişafına da xüsusi qayğı göstərilir. Məhəmməd Tağı Sidqinin həyat və fəaliyyətinin araşdırılması, onun zəngin irsinin üzə çıxarılması da bu baxımdan mühüm əhəmiyyət daşıyır. Bu tədbirlər xalqımızın görkəmli şəxsiyyətlərinin fəaliyyətinə verilən qiymətlə yanaşı, həm də muxtar respublikada ziyalılara göstərilən qayğının daha bir ifadəsidir.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş, muzey binasına baxmışdır.

Məlumat verilmişdir ki, muzey binası 2 mərtəbəlidir. Ekspozisiya zalı binanın ikinci mərtəbəsində yerləşir. Birinci mərtəbədə isə muzeyin əməkdaşları üçün iş otaqları ayrılmışdır. Ekspozisiya zalında Sidqinin hikmətli sözlərindən seçmələr, ömrünün müxtəlif dövrlərini əks etdirən, eləcə də ailə üzvləri, sənət yoldaşları və vaxtilə onun şagirdləri olan görkəmli şəxsiyyətlərin fotoşəkilləri də nümayiş etdirilir.

Həmçinin burada görkəmli maarifçinin tərcümeyi-halı, əlyazmaları, nəşr olunan məqalə və kitabları, eləcə də teatr sahəsindəki xidmətlərini əks etdirən dəyərli nümunələr, görkəmli pedaqoqun zəngin irsinin öyrənilməsi ilə bağlı keçirilən konfransların materialları, qəbul olunan proqramlar, Məhəmməd Tağı Sidqi haqqında yazılmış kitab, jurnal, qəzet materialları və fotoşəkillər də qorunur. Muzeydəki eksponatlar Sidqi yaradıcılığını tədqiq edənlər üçün dəyərli elmi mənbələrdir.

Ziyalılarla söhbət edən Ali Məclisin Sədri demişdir ki, Məhəmməd Tağı Sidqinin irsi, onun maarifçilik ideyaları, elmin və təhsilin inkişafı sahəsində əsasını qoyduğu ənənələr bu gün də aktualdır. Görkəmli maarifçinin həyat və yaradıcılığı ilə bağlı araşdırmalar bundan sonra da davam etdirilməli, muzey arxiv materialları əsasında zənginləşdirilməlidir. Sidqinin irsi daim gənc nəslə təbliğ olunmalı, onun pedaqoji fikir tariximizdə əsasını qoyduğu ənənələr tədris prosesində təbliq edilməli, muzeydə ümumtəhsil məktəbləri şagirdlərinin iştirakı ilə açıq dərslər keçirilməlidir.

Sonra Ali Məclisin Sədri muzeyin xatirə dəftərini imzalamış, muzey binasının qarşısında tədbir iştirakçıları ilə xatirə şəkli çəkdirmişdir.

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Ordubad Rayon Avtomobillərin Müayinə Mərkəzi fəaliyyətə başlamışdır





Avqustun 25-də Ordubad şəhərində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Ordubad Rayon Avtomobillərin Müayinə Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov açılış mərasiminə gələn Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova raport vermişdir.

Ali Məclisin Sədri şəxsi heyəti salamlamış və binanın açılışını bildirən lenti kəsmişdir.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov tədbirdə çıxış edərək demişdir ki, bu gün muxtar respublikada daxili işlər orqanlarının fəaliyyəti müasir tələblər səviyyəsində qurulmuş, ictimai asayişin və təhlükəsizliyin qorunması təmin edilmişdir. Bu tədbirlər çərçivəsində yol hərəkətinin təhlükəsizliyinin təmin olunması istiqamətində də mühüm işlər görülür. Muxtar respublikanın yol infrastrukturu yenidən qurulmuş, magistral yollarda 6 ədəd sürətölçən rəqəmsal radar sistemi, xidməti avtomobillərdə 25 ədəd bort kompüter və nəzarət-izləmə kameraları, inzibati cərimələrin yerində ödənilməsi məqsədilə 15 ədəd POS-terminal quraşdırılmışdır. Dövlət Yol Polisi İdarəsi müasir inzibati bina və avtomobillərlə təmin olunmuşdur. 2014-cü ildə Şərur, bu il isə Culfa və Ordubad rayonlarında müayinə mərkəzlərinin istifadəyə verilməsi isə bu sahədə xidmətin günün tələblərinə uyğun qurulmasına imkan verir. Əhməd Əhmədov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Ordubad Rayon Avtomobillərin Müayinə Mərkəzinin son illər muxtar respublikada istifadəyə verilən üçüncü müayinə mərkəzi olduğunu bildirmiş, bu münasibətlə kollektivi təbrik edərək demişdir: Azərbaycan müstəqil dövlətdir. Hər bir müstəqil dövlətin ən qiymətli sərvəti isə onun insanlarıdır. İnsan həyatı, onun sağlamlığı harada çalışmasından və yaşamasından asılı olmayaraq qorunmalıdır. Bu gün ölkəmizdə insan amilinə verilən qiymət bütün sahələrdə özünü göstərir. Sosial sahədə həyata keçirilən tədbirlər, istifadəyə verilən yeni sosial obyektlər, tikilən səhiyyə müəssisələri, yaradılan şərait ölkəmizdə insan amilinə verilən qiymətin ifadəsidir. İnsanların həyatının qorunmasının vacib olduğu sahələrdən biri də ümumi istifadədə olan yollar və nəqliyyat vasitələridir. Müasir yol şəbəkələrinin yaradılması, nəqliyyat vasitələrinin vaxtında müayinədən keçirilməsi, onların istismar qaydalarına əməl olunması yol-nəqliyyat hadisələrinin sayının azalmasına, eləcə də insanların həyatının və əmlakının qorunmasına imkan verir.

Ali Məclisin Sədri demişdir: Bu gün muxtar respublikada cinayətsiz region və hadisəsiz yollar prinsipi reallığa çevrilmişdir. Son illər muxtar respublikada istifadədə olan yollar müasir səviyyədə qurulmuş, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkəti üçün lazımi şərait yaradılmışdır. İstismar müddəti başa çatan yararsız avtomobillərin istismardan çıxarılması, muxtar respublikada fəaliyyət göstərən sürücülük məktəblərinin müasir tələblər səviyyəsində qurulması, sürücülərin hərtərəfli hazırlanması, tələbkarlığın və məsuliyyətin artırılması yollarda hadisələrin sayının azalmasına səbəb olmuşdur. Bu işdə dövlət yol polisinin də üzərinə mühüm vəzifələr düşür. Çünki xidmətin düzgün təşkili də yol-nəqliyyat hadisələrinin qarşısının alınmasında başlıca şərtdir.

Ali Məclisin Sədri xidməti düzgün təşkil etdiklərinə görə kollektivə təşəkkür etmiş, onlara işlərində uğurlar arzulamış, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, bina texniki baxış zalı və xidməti otaqlardan ibarətdir. Texniki baxış zalı minik və yük avtomobillərinin rahat hərəkətinə uyğun qurulmuş və dəqiq diaqnozun qoyulması üçün ən müasir avadanlıqlarla təchiz edilmişdir. Texniki baxış zalında 1 kompüter, 3 monitor və digər diaqnostik müayinə avadanlıqları quraşdırılmış, 5 duracaq yaradılmışdır.

Müayinə mərkəzində avtomobillərin əyləc sistemi, mühərrikdən atmosferə atılan işlənmiş qazların tərkibində olan zərərli tullantıların normativ standartlara uyğunluğu, sükanın idarəetmə qollarının və almacıqların sazlığı yoxlanılır, şinlərin protektor naxışları ölçülür. Müayinənin hər mərhələsi barədə məlumatlar kompüterdə əks olunur və Dövlət Yol Polisi İdarəsinin mərkəzi qeydiyyat sisteminə ötürülür. Eyni zamanda müayinənin yekun nəticələri nəqliyyat vasitəsinin sahibinə təqdim edilir.

Ali Məclisin Sədri nəqliyyat vasitələrinin vaxtında texniki baxışdan keçirilməsi və sığorta qeydiyyatının aparılmasının vacibliyini vurğulamış, bu məqsədlə kütləvi informasiya vasitələrinin imkanlarından istifadə edərək maarifləndirici tədbirlərin genişləndirilməsi barədə tapşırıqlar vermişdir.

Ordubad rayonu üzrə qeydiyyatda olan 4 minə yaxın nəqliyyat vasitəsinə xidmət göstərəcək mərkəzdə 7 nəfər işlə təmin olunmuşdur. Həmçinin binada fərdi istilik sistemi quraşdırılmış, həyət abadlaşdırılmış, avtomobil dayanacağı yaradılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dövlət qulluqçularının etik davranış qaydalarına həsr olunmuş seminar

*Avqust ayının 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət qulluqçularının etik davranış qaydalarına riayət etməsinə nəzarətin artırılması, dövlət orqanlarında sənədlərlə işin təşkili vəziyyəti və dövlət qulluqçularının reyestrinin aparılması ilə bağlı maarifləndirici seminar keçirib. Seminarda Naxçıvan Şəhər İcra Hakimiyyəti aparatında, Naxçıvan Şəhər Məhkəməsində və Naxçıvan Muxtar Respublikasında yerləşən ixtisaslaşmış məhkəmələrdə inzibati vəzifə tutan dövlət qulluqçuları iştirak ediblər.*

Seminarı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri Etibar Musayev açaraq keçirilən seminarın məqsəd və mahiyyətindən danışıb.

Sonra Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Sərdar Salahov çıxış edərək "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı ötən bir il ərzində Naxçıvan Şəhər İcra Hakimiyyəti tərəfindən həyata keçirilən tədbirlər haqqında məlumat verib.

Komissiyanın sədri Etibar Musayev çıxış edərək bildirib ki, 31 may 2007-ci il tarixdə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Qanun dövlət qulluqçuları üçün etik davranış qayda və prinsiplərini, həmçinin onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir. Qanunun birinci maddəsində qeyd olunur ki, etik davranış qaydaları dövlət qulluqçusu statusuna malik olan bütün şəxslərə şamil edilir. Hər bir dövlət qulluqçusu qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutaraq bu qanunun müddəalarına əməl etməyə borcludur.

Qeyd olunub ki, şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə dövlət qulluqçuları öz vəzifələrini səmərəli yerinə yetirməyə borcludurlar. Onlar bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdırlar. Dövlət qulluqçusu etik davranışı, peşəkar fəaliyyəti ilə dövlət orqanlarına inamı artırmalı və möhkəmləndirməli, dövlət qulluğu vəzifələrinin icrası ilə bir araya sığmayan, dövlət orqanının nüfuzuna aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. O, Azərbaycan Respublikasının, dövlət orqanının və dövlət qulluğunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa, etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur.

Bildirilib ki, dövlət qulluqçusu bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və ya tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır. O, özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrini yerinə yetirməsinə təsir etməsinə şərait yaratmamalı, qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməli və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir. Etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır. Dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

Komissiyanın sektor müdiri Arzuman İmanov çıxışında dövlət orqanlarında sənədlərlə işin təşkili, dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydaları barədə məlumat verib. Arzuman İmanov dövlət qulluqçuları reyestrinin aparılması ilə bağlı dövlət orqanları tərəfindən komissiyaya göndərilən sənədlərdə daha çox rast gəlinən nöqsanlar və onların aradan qaldırılması yolları haqqında danışıb.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Ordubad rayonunda əmək yarmarkası keçirilib

*Bu münasibətlə keçirilən tədbirdə Ordubad Rayon Məşğulluq Mərkəzinin direktoru Telman Həsənov çıxış edərək bildirib ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və məşğulluğunun yaxşılaşdırılması üçün çevik məşğulluq tədbirlərindən biri olan əmək yarmarkalarının rolu və əhəmiyyəti daha da artırılıb. Son illər təşkil olunan əmək yarmarkaları vasitəsilə yüzlərlə ordubadlının məşğulluq problemi həll edilib. Cari ildə də bu ənənə davam etdirilir.*

Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli çıxışında qeyd edib ki, rayonda məşğulluq problemlərinin həlli daim diqqət mərkəzində saxlanılır. Kənd mərkəzlərinin tikintisi və abadlığı, məktəblərin yenidən qurulması və təmiri, içməli su və kanalizasiya xətlərinin çəkilişi və sair obyektlərin inşası nəticəsində yaranmış iş yerləri, eləcə də digər idarə və müəssisələrdə müxtəlif ixtisas və peşələr üzrə yaranmış boş iş yerləri qeyri-məşğul əhalinin işlə təmin olunması üçün geniş imkanlar açır.

İşaxtaran vətəndaş Səid Muradov əmək yarmarkasının keçirilməsinin işaxtaranlar üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Sonra əmək yarmarkasının iştirakçıları boş iş yerləri ilə tanış olublar. 16 müəssisədən 191 boş iş yerinin çıxarıldığı yarmarkada 26 nəfərə işə göndəriş verilib, 2 nəfər peşə hazırlığı kurslarına göndərilib.

**Xəbərlər şöbəsi**

***Ümummilli liderimiz Heydər Əliyevin 2000-ci il 13 iyul tarixli Fərmanına əsasən, Naxçıvan Politexnik Texnikumunun bazasında Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı yaradılmışdır. 2003-cü il avqustun 26-da filial Naxçıvan Müəllimlər İnstitutuna çevrilmiş və müstəqil fəaliyyətə başlamışdır.***

# Naxçıvan Müəllimlər İnstitutu ötən 15 ildə böyük inkişaf yolu keçmişdir



Ölkəmizdə həyata keçirilən məqsədyönlü təhsil islahatları Naxçıvan Müəllimlər İnstitutunun da fəaliyyətinə geniş imkanlar açmışdır. Ötən dövrdə institutun binası yenidən qurularaq lazımi tədris şəraiti yaradılmış, maddi-texniki bazası gücləndirilmişdir. Ali təhsil müəssisəsində bu imkanlardan yararlanaraq ixtisaslı kadrların hazırlanması sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. 15 il bundan öncə 21 tələbə ilə fəaliyyətə başlayan institutda hazırda 1100 tələbə və 25 magistr təhsil alır. Ötən müddətdə institutun bakalavr səviyyəsini 1300 tələbə bitirmişdir. İnstitutda pedaqoji kadrlarla təminat da diqqət mərkəzində saxlanılır. Hazırda burada təhsil alan tələbə və magistrlərin təhsili ilə 89 professor-müəllim məşğul olur. Müəllimlərdən 8-i elmlər doktoru, professor, 37-si fəlsəfə doktoru, dosentdir. Bu günədək institut əməkdaşlarının 1275 məqaləsi, 716 tezisi, 106 kitabı, o cümlədən 62 monoqrafiya, 12 dərslik, 37 dərs vəsaiti, həmçinin 189 metodik vəsait və fənn proqramları nəşr edilmişdir.

2011-ci ildə Naxçıvan Müəllimlər İnstitutunun fəaliyyət istiqamətləri genişləndirilmiş, yeni ixtisaslar açılmışdır. 2003-cü ilə qədər Naxçıvan Müəllimlər İnstitutunda İbtidai təhsilin pedaqogikası və metodikası və Məktəbəqədər tərbiyənin pedaqogikası və metodikası ixtisaslarında təhsil verilirdisə, bu gün İbtidai sinif müəllimliyi, Riyaziyyat və informatika müəllimliyi, Təsviri incəsənət müəllimliyi, Məktəbəqədər təlim və tərbiyə, Təhsildə sosial-psixoloji xidmət və Pedaqogikanın nəzəriyyəsi və tarixi ixtisasları üzrə də bakalavr və magistr kadrları hazırlanır. Hazırda institutda Dillər və ədəbiyyat, Pedaqogika və psixologiya, Riyaziyyat və tədrisi metodikası, Ali riyaziyyat və informatika, Humanitar və təsviri incəsənət və Ümumi fənlər kafedraları fəaliyyət göstərir. Bütün bunlar muxtar respublikada müxtəlif istiqamətlər üzrə ixtisaslı pedaqoji kadrların hazırlanması kimi mühüm bir məqsədə xidmət edir.

Bu gün institutda mütərəqqi təhsil metodları və informasiya texnologiyaları geniş tətbiq olunur, təhsil Boloniya sistemi üzrə aparılır. Bu da dünya təhsil sisteminə inteqrasiya baxımından mühüm əhəmiyyət daşıyır. Son illər mütərəqqi tədris metodlarından istifadə tələbələrin bilik və dünyagörüşünün inkişaf etdirilməsinə səbəb olmuşdur.

Naxçıvan Müəllimlər İnstitutunda müxtəlif tədbirlər, konfrans və simpoziumlar keçirilir, elmi müzakirələr aparılır. 2003-cü ildən başlayaraq hər ilin may ayında ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş “Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi” mövzusunda elmi-praktik konfrans keçirilir. Konfransda ali təhsil müəssisələrinin professor-müəllim və tələbələri, təhsil şöbələrinin əməkdaşları və ümumtəhsil məktəblərinin müəllimləri fəal iştirak edir, ulu öndərin zəngin siyasi fəaliyyəti ətraflı təhlil olunur, müxtəlif mövzularda mühazirələr oxunur. 2014-cü ildən isə “Təhsil kurikulumları: nəzəri problemlər” mövzusunda konfrans keçirilir. Bununla yanaşı, hər il institutda “Heydər Əliyev və Azərbaycan”, “Milli Qurtuluş Günü”, “Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü”, “Xocalı faciəsi”, “Azərbaycanlıların soyqırımı və deportasiya tarixi”, “Beynəlxalq Ana Dili Günü”, “Azərbaycan gəncliyi inkişaf yollarında” və digər mövzularda, eləcə də görkəmli şəxsiyyətlərə həsr olunmuş elmi-praktik konfranslar da təşkil olunur.

İnstitut ölkəmizdə, eləcə də muxtar respublikamızda fəaliyyət göstərən ali təhsil ocaqları və elm müəssisələri ilə mütəmadi əlaqələr saxlayır. 2007-ci ildən başlayaraq Naxçıvan Müəllimlər İnstitutu Naxçıvan Dövlət Universiteti, AMEA Naxçıvan Bölməsi, Riyaziyyat və Mexanika İnstitutu ilə birlikdə müxtəlif mövzularda fizika, riyaziyyat və texnika elmləri üzrə beynəlxalq simpozium və konfranslar keçirir. Bu gün Naxçıvan Müəllimlər İnstitutunun bir sıra dünya universitetləri ilə də əlaqələri vardır. Ukrayna Milli Elmlər Akademiyasının Riyaziyyat İnstitutu, Xarkov Universiteti, Türkiyə Respublikasının Kocaeli, Qars Qafqaz, Kırşehir Ahı Evran, İstanbul Esenyurd və Nişantaşı universitetləri, Şimali Kiprin Akdeniz Universiteti, İngiltərənin London Riyaziyyatçılar Birliyi, Qazaxıstan Respublikasının Almatı Milli Universiteti ilə faydalı elmi əməkdaşlıq edən Naxçıvan Müəllimlər İnstitutu bu əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirir.

Naxçıvan Müəllimlər İnstitutunun kitabxanası tələbə-gənclərin təhsilində və asudə vaxtlarının təşkilində mühüm rol oynayır. Kitabxananın fondu son illərdə nəşr olunan tədris-metodik, elmi, monoqrafik xarakterli ədəbiyyatlarla daha da zənginləşdirilmiş və elektron kataloq yaradılmışdır. Hazırda fonddakı 42 minə yaxın kitab müəllim və tələbələrin istifadəsindədir. Həmçinin kitabxananın bazasında 3 minə yaxın elektron kitab da vardır.

Naxçıvan Müəllimlər İnstitutunun “Xəbərlər” elmi-metodik jurnalı 2004-cü il 21 dekabr tarixindən başlayaraq ildə 4 nömrə ilə nəşr olunur. Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısının Pedaqogika elmləri bölməsinə daxil edilərək nəşr olunur. Bu günədək jurnalın 42 nömrəsi işıq üzü görmüşdür. İnstitutda müasir avadanlıqlarla təchiz olunmuş Nəşriyyat şöbəsi də fəaliyyət göstərir ki, burada elmi-praktik konfransların proqram və materialları, “Xəbərlər” elmi jurnalı, fənn proqramları, əməkdaşların dərs və metodik vəsaitləri, tövsiyələri, qabaqcıl iş təcrübələri və digər nəşrlər çap olunur.

İnstitutun əməkdaşları muxtar respublikada elmin inkişafına mühüm töhfələr verirlər. Xüsusilə təlim-tədris metodlarının tədqiqi və pedaqoji kadrların bu metodlardan səmərəli istifadəsi üçün mühüm işlər görülür. Elmi nailiyyətlərin istehsalatda tətbiqi ilə bağlı olaraq Əməkdar elm xadimi, professor Oruc Həsənlinin “Sosial psixopedaqogikada istedadlı uşaqlar problemi”, “Diyarşünaslıq materiallarından istifadə mənəvi tərbiyənin vasitəsi kimi”, “Didaktika”, “Sirli dünya: qısqanclıq”, “Məktəb psixoloqunun stolüstü kitabı”, filologiya elmləri doktoru, professor Akif İmanlının “Uşaqların körpəlik dövründə tərbiyəvi iş və nitq inkişafı məsələləri”, professor Sadıq Vəliyev və Rafiq Hüseynovun “Dərsin səmərəli təşkilində fəal interaktiv təlimə bir baxış”, filologiya üzrə fəlsəfə doktoru Həsənəli Eyvazlı və Tamara Baxşəliyevanın “Milli kurikulum yeni təlim metodlarında”, professor Sadıq Vəliyev və pedaqogika üzrə fəlsəfə doktoru İsa Əliyevin “Cəbr kursunda məsələ həllinə rəhbərlik və çalışmalar” adlı dərs vəsaitləri, metodik vəsaitlər və digər elmi ədəbiyyatlar hazırlanaraq Naxçıvan Muxtar Respublikasının bütün rayon təhsil şöbələrinə paylanmışdır.

Elmi kadrların hazırlanması intellektual inkişafın əsas şərtidir. Ona görə də institutda bu məsələyə xüsusi diqqət yetirilir. Belə ki, son 15 ildə Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşlarından 6-sı elmlər doktoru, 14-ü fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. Müəllim kollektivinin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, 1 nəfər Əməkdar elm xadimi, 4 nəfər Azərbaycan Respublikasının Əməkdar müəllimi, 6 nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, 1 nəfər isə Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adlarına layiq görülmüş, 2 müəllim “Tərəqqi” medalı ilə təltif edilmişdir.

*Təhsil gələcəyə istiqamətlənmiş inkişaf metodudur. Naxçıvan Müəllimlər İnstitutunun kollektivi qarşısında qoyulan vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, muxtar respublikada təhsilin inkişafına öz töhfəsini verəcəkdir.*

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

***26 avqust Beynəlxalq Azərbaycan Muğamı Günüdür***

# Muğam sənəti Azərbaycan xalqının milli sərvətidir

***Azərbaycan xalqının qədim və zəngin tarixinin, mədəni irsinin mühüm bir qolunu da muğam sənəti təşkil edir. Millətin milli özünüdərki, həyat tərzi və soykökünün göstəricisi olan bu zəngin sənət növü xalqımızın dünya mədəni irsinə bəxş etdiyi ən böyük xəzinədir.***

Azərbaycan muğamı xalqımızın ruhunu əsrlərboyu yaşatmış, bu gün də yaşatmaqdadır. Muğam sənətimizdə xalqımızın təfəkkürü və düşüncə tərzi öz əksini tapır. Məhəbbət və nifrət, xeyir və şər, hicran və vüsal, mübarizə və döyüş, inam və qələbə üzərində köklənən muğamlar məzmun və fəlsəfi zənginlik yaradaraq hər bir azərbaycanlının mənəviyyatına daxil olmuşdur. Muğam sənətinin zənginliyi, ucalığı, əbədiyaşarlığı da bu dəyərləri əsrlərdən-əsrlərə daşımasındadır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün bunları nəzərə alaraq deyirdi: ***“Bizim xalqımızın böyük musiqi mədəniyyəti tarixi var. Azərbaycan xalqının qədim dövrlərdən indiyə qədər yaşayan xalq musiqisi, xalq mahnıları, Azərbaycan muğamları milli sərvətimizdir”.***

Qüdrətli söz, həqiqi poeziya, sözün fəlsəfi dərinliyi, şeirin heyrətləndirmək gücü Azərbaycan muğamı ilə vəhdətdə olmaqla onu daha da rövnəqləndirmişdir. Əsrlərboyu ustad xanəndələr söz üzərində sərraf kimi düşünərək onun məna gözəlliyinə və axıcılığına xüsusi diqqət yetirmişlər. Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Molla Pənah Vaqif, Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan, Ələğa Vahid və başqa şairlərimizin qəzəlləri üstündə oxunan “Rast”, “Şur”, “Segah”, “Çahargah”, “Bayatı-şiraz”, “Şüştər”, “Humayun”, eləcə də “Şahnaz”, “Mahur-hindi”, “Rahab”, “Heyratı”, “Arazbarı”, “Simayi-şəms”, “Mənsuriyyə”, “Qarabağ şikəstəsi”, “Kəsmə şikəstə” və başqa muğamlar tükənməz söz-sənət çeşməsi kimi milli musiqi mədəniyyətimizi zənginləşdirmişdir.

Azərbaycan muğamının ən mükəmməl elmi əsasını XX əsrdə dahi bəstəkar Üzeyir Hacıbəyov qoymuşdur. Bu dövrdə muğam Azərbaycan bəstəkarlarının, şairlərinin ilham mənbəyi olmaqla qiymətli sənət əsərlərinin meydana gəlməsinə öz təsirini göstərmişdir. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Soltan Hacıbəyov, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Vasif Adıgözəlov və başqaları muğam sənətinə əsaslanaraq qiymətli sənət nümunələri yaratmışlar. Azərbaycan musiqisində simfonik muğamların yaranması muğam sənətinin rəngarəngliyini, onun sərhədsiz imkanlarının geniş olduğunu göstərməkdədir. Fikrət Əmirovun “Şur”, “Gülüstani-bayatı-şiraz”, Niyazinin “Rast”, Süleyman Ələsgərovun “Bayatı-şiraz” simfonik muğamları, Vasif Adıgözəlovun “Qarabağ şikəstəsi” oratoriyası, Vaqif Mustafazadənin muğam əsasında ifa etdiyi əsərlər, bəstələdiyi musiqilər dünyanın müxtəlif ölkələrində dinləyiciləri valeh etmişdir.

Ötən əsrin 70-ci illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə milli dəyərlərimizin yaşadılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində muğam sənətimiz də yeni inkişaf mərhələsinə qədəm qoymuş, muğam ifaçıları və bu sənəti yaşadanlar qayğı ilə əhatə olunmuşlar. 1971-ci ildə YUNESKO-nun 50 albomdan ibarət olan “Dünya ənənəvi musiqisinin antologiyası” seriyasına “Azərbaycan musiqisi plastinkası” da daxil edilmiş, 1975-ci ildə Azərbaycan muğamları “Musiqi mənbələri” seriyasında buraxılmışdır.

Müstəqillik illərində də Azərbaycan musiqisinin və muğamının inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. 2002-ci ilin noyabr ayında YUNESKO tərəfindən muğam sənəti “Bəşəriyyətin qeyri-maddi mədəni irsi reprezentativ siyahısı”na daxil edilmişdir. Ulu öndərin 2003-cü il 16 may tarixdə imzaladığı “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, muğam-dəsgahlar, zərb muğamlar, təsnif və rənglər də qorunan folklor nümunələri siyahısına salınmışdır. Həmçinin müxtəlif festivallarda, beynəlxalq müsabiqələrdə, dünyanın mötəbər mədəniyyət və musiqi tədbirlərində Azərbaycan muğamı əzəmətlə səslənmişdir. Bütün bunlar sonrakı illərdə zəngin muğam sənətimizin inkişafı və tanıdılması baxımından dəyərli ənənənin əsasını qoymuşdur.

Bu gün Azərbaycanda muğam sənətinə, musiqimizə dərin məhəbbət və ehtiram var. Onun qorunub saxlanması və təbliğinə xüsusi diqqət göstərilir. Ölkəmizdə elə bir musiqi tədbiri yoxdur ki, orada muğam sədası eşidilməsin. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə yaradılan və yüksək səviyyədə inşa olunaraq istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzi qədim sənətə göstərilən diqqət və qayğının daha bir ifadəsidir.

Ölkə başçısı demişdir: ***“Muğam Azərbaycanın milli sərvətidir. Azərbaycan xalqı əsrlərboyu bu gözəl sənəti öz həyatında uca tutmuşdur, öz qəlbində saxlamışdır. Nəsildən-nəslə keçən muğam sənəti bu gün də Azərbaycanda yaşayır, qorunur, inkişaf edir”.***

Muğam sənətinin qorunub saxlanması və tanıdılması istiqamətində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən silsilə tədbirlər müstəsna rol oynayır. Son illər ölkəmizdə bir sıra irimiqyaslı layihələr həyata keçirilmiş, muğam müsabiqələri təşkil olunmuş, “Qarabağ xanəndələri” albomu buraxılmış, “Muğam” jurnalı, “Muğam ensiklopediyası” nəşr edilmişdir. Muğama dair ilk tədris vəsaiti kimi 8 diskdən ibarət “Azərbaycan muğamı” multimedia toplusu hazırlanmışdır. Azərbaycanda 2009-cu ildən başlayaraq iki ildən bir Beynəlxalq Muğam Festivalı və bu festival çərçivəsində Beynəlxalq “Muğam aləmi” simpoziumu keçirilir.

Muxtar respublikada da muğam sənətinin yaşadılması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamına əsasən keçirilən xalq yaradıcılığı günlərində zəngin folklor nümunələri ilə yanaşı, muğamlarımız da gənc nəslə aşılanır. 2012-ci ilin muxtar respublikamızda “Milli dəyərlər ili” elan olunması isə muğam musiqisi sahəsində yaddaqalan tədbirlərlə əlamətdar olmuşdur. Həmin il keçirilən “Milli dəyərlərimiz – milli sərvətimiz” folklor və muğam müsabiqəsi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. 2013-cü ildə ölkəmizdə keçirilən “Muğam müsabiqəsi – 2013” televiziya müsabiqəsinin bir mərhələsi Naxçıvanda keçirilmiş, müsabiqənin münsiflər heyətinin üzvləri, tanınmış muğam ustadları Naxçıvan Dövlət Universitetində olmuş və ustad dərsləri keçmişlər.

Muxtar respublikamızda son illər xalq musiqimizin, muğamlarımızın nota köçürülməsi ilə bağlı görülən işlər də bu sahəyə göstərilən diqqət və qayğının ifadəsidir. Bu gün Naxçıvanda muğam sənətinin öyrənilməsi, təbliği və tədrisi sahəsində mühüm işlər həyata keçirilir. Naxçıvan Musiqi Kollecində, musiqi məktəblərində muğam dərsləri tədris olunur, gənc muğam ifaçıları yetişdirilir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən muğam ustadları Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, Prezident təqaüdü və mükafatlarına layiq görülmüşlər. Musiqimizi və muğamlarımızı yaşadan sənətkarlarımızın yubileylərinin qeyd olunması da gözəl ənənəyə çevrilmişdir.

***Azərbaycan muğam sənəti xalqımızın çoxəsrlik tarixində dərin köklərə malik olmaqla, ölkəmizin musiqi mədəniyyətinin şifahi irsində mühüm və əhəmiyyətli yer tutur. Xalqımız tərəfindən milli özünüdərkin ən mühüm mədəni dəyərlərindən biri kimi qəbul edilən qədim muğam sənəti bu gün ölkəmizdə və Naxçıvan Muxtar Respublikasında layiqincə qorunur, yaşadılır və təbliğ olunur. Çünki muğam yalnız dünənin və bu günün deyil, həm də gələcəyin musiqisidir.***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda Beynəlxalq İtkinlər Günü münasibətilə tədbir keçirilib

*Avqustun 25-də Naxçıvan şəhərində Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin birgə təşkilatçılığı ilə 30 avqust – Beynəlxalq İtkinlər Günü münasibətilə tədbir keçirilib.*

Naxçıvan Muxtar Respublikasından itkin düşmüş şəxslərin ailə üzvlərinin iştirakı ilə keçirilən tədbirdə BQXK-nın Azərbaycandakı Nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlahə Hüseynova çıxış edərək ailələrin itkin düşmüş əzizlərinin taleləri haqqında məlumat əldə etmək hüquqları olduğunu vurğulayıb.

İlahə Hüseynova bildirib ki, BQXK bütün dünyada münaqişələrin ayırdığı on minlərlə ailələrə kömək etmək üçün itkin düşmüş insanların problemi üzrə işini davam etdirir. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar itkin düşmüş şəxslərin taleyi BQXK-nın regiondakı humanitar fəaliyyətinin əsas istiqamətidir. Komitə neytral vasitəçi kimi atəşkəsin elan edilməsindən 21 il keçməsinə baxmayaraq, münaqişə ilə bağlı itkin düşmüş 4600-dək insanın taleyinin araşdırılmasına kömək edir.

BQXK-nın Azərbaycandakı Nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri diqqətə çatdırıb ki, əzizlərinin itkisindən ən çox əziyyət çəkənlər onlara ən yaxın ailə üzvləridir. Buna görə də BQXK Dağlıq Qarabağ münaqişəsində itkin düşmüş şəxslərin ailələrinə yardım göstərmək üçün son illərdə proqram həyata keçirir. Təşkilat itkin düşmüş şəxslərin ailələrindən sosial işçi (sirdaşlar) kimi könüllülər seçərək onlarda digər ailələrə yardım göstərmək bacarığını inkişaf etdirir.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin sədri Yaşar Vəliyev qonaqları salamlayaraq bildirib ki, muxtar respublika üzrə itkin düşən vətəndaşların sayı 7 nəfərdən ibarətdir. Onlardan 4 nəfəri Şərur, 2-si Culfa, 1-i isə Şahbuz rayonundandır. Üzərindən uzun illər keçməsinə baxmayaraq, itkin düşən həmin şəxslərdən hələ də heç bir xəbər almaq mümkün olmayıb.

BQXK-nın itkin düşmüş şəxslər üzrə nümayəndəsi Zurab Burduli qeyd edib ki, qərəzsiz, neytral və müstəqil təşkilat olan BQXK fəaliyyətində humanitar prinsipləri əsas götürür. BQXK beynəlxalq humanitar hüquq üzrə öhdəliklərini həyata keçirən hökumət orqanlarına daim dəstək göstərir. İtkin düşmüş şəxslərin axtarılması da komitənin əsas fəaliyyət istiqamətlərindən biridir.

Beynəlxalq İtkinlər Günü münasibətilə tədbirin 24 ildir, blokada vəziyyətində yaşayan Naxçıvan Muxtar Respublikasında keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdıran Azərbaycan Qızıl Aypara Cəmiyyətinin vitse-prezidenti Qafar Əsgərzadə bildirib ki, bu gün Naxçıvan özünün sürətli sosial-iqtisadi inkişafı ilə diqqətləri üzərinə cəlb edir. Üç tərəfdən düşmən əhatəsində olan Naxçıvan özünün çiçəklənmə dövrünü yaşayır. Qafar Əsgərzadə Azərbaycanın bütün regionlarından, o cümlədən Naxçıvan Muxtar Respublikasından itkin düşmüş şəxslərin axtarışları istiqamətində fəaliyyətin davam etdirildiyini bildirib. Qeyd edib ki, gələcəkdə Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə nail olunarsa, bu, itkin düşmüş şəxslərin tapılmasında həlledici rol oynayacaqdır.

BQXK-nın Ailələrə psixoloji dəstək proqramı üzrə nümayəndəsi İda Anderson itkin düşmüş şəxslərin ailə üzvlərinə psixoloji dəstəyin əhəmiyyətini vurğulayıb, bu proqramda iştirak edən ailələrin psixoloji durumlarında irəliləyişlər müşahidə olunduğunu qeyd edib. Belə ki, proqramda iştirak edən insanlarda psixoloji stress 34 faiz azalıb, itkinin öhdəsindən gəlmək bacarığı 14 faiz və gündəlik yaşam funksionallığı isə 19 faiz artıb.

Şərur rayonundan itkin düşmüş İlyas Yusifovun qardaşı Aydın Yusifov çıxış edərək dövlətimizin itkin düşmüş şəxslərin ailə üzvlərinə, o cümlədən şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan söz açıb.

BQXK-nın Dağlıq Qarabağ münaqişəsində itkin düşmüş şəxslərin ailələrinə psixoloji yardım göstərmək üçün həyata keçirdiyi proqram barədə videoçarx nümayiş etdirilib.

✍ **Rauf ƏLİYEV**

*Kənd təsərrüfatı ili*

## Qış qızılı alması qiymətli sortdur

*Ata-babadan alma dadı, tamı, ətri, faydasına görə "behiştdən gələn meyvə" adlanır. Şahbuzun Keçili kəndində yararsız yerlərə hörgülərlə su arxı çəkib, 5 hektar meyvə bağı salan, bu gün də barverən həmin bağın sahibi 130 il ömür sürmüş Hacı Nurəli baba deyərmiş ki, hər kim səhər-səhər gündə iki alma yesə, atdan yıxılsa da, heç bir sınığa düçar olmaz. Alma sümükləri də bərkidir.*

Alma, sözün əsl mənasında, meyvələrin şahıdır. Tərkibində limon, kəhrəba, alma turşuları, 5 faizdən 24 faizədək şəkər, B, C vitaminləri, kalium, natrium, dəmir duzları, karotin maddələri vardır. Naxçıvan torpağında yetişən alma meyvəsi yeyiləndə kəsilən hissəsi tezliklə qızarır. Başqa yerlərin alma meyvəsində belə rəngə rast gəlmək çətindir. Hələ 40-50 il bundan əvvəl Kükü, Keçili, Nursu, Ağbulaq kəndlərində salınan alma bağları əhalinin meyvəyə olan tələbatında mühüm rol oynamışdır. Maraqlıdır ki, vaxtilə Babək rayonunun Hacıniyyət tinglik təcrübə təsərrüfatı muxtar respublikanı alma tingləri ilə təmin edərkən keçmiş ittifaqın müxtəlif regionlarından alma toxumları alaraq ting yetişdirirdi. Avropa ölkələrindən başqa, Meksika və Kanadada yayılıb Baltikyanı ölkələr, Moldovayadək rayonlaşıb, oradan da toxumcuqluqla Azərbaycana, o cümlədən Naxçıvana gətirilən çox qarışıq alma sortları burada artırılmışdır. Qonşu İran, Türkiyə və digər ölkələrdən də müxtəlif alma sortu tingləri gətirilərək bara salınmışdır. Bu torpağın ən qiymətli sortu olan qış qızılı indinin özündə də bütün gətirilmə alma sortlarına meydan oxuyur. Bu sortla rəqabətə girən alma növlərinə rast gəlmək çətindir. Çoxları elə bilir ki, qış qızılı alması yəqin qırmızı rəngdədir. Xeyr, yaşıl rənglidir. Mart, aprel, hətta may aylarınadək



əla dözümlə öz dad-tamını yaxşılaşdırıb getdikcə saralır. Bu sortun vətəni Naxçıvan iqlimi kimi sərt Sibir torpağıdır. İki əsr əvvəl seleksiya yolu ilə yaradılaraq yayılmışdır. Respublikamızın bütün bölgələri ilə müqayisədə elə bil qış qızılının əsl vətəni Şahbuzun dağ kəndləridir. Yayın sərin mehində ağaclar olduqca yaxşı inkişaf edir. Soyuğa, istiliyə, zərərverici və xəstəliyə ən dözümlü sort kimi yaxşı qulluq edildikdə bol məhsul verir.

Şahbuzun məşhur bağbanlarından olan Keçili kənd sakini, 90 il yaşamış Musa müəllim deyirdi ki, qış qızılı alması dad-tamında bütün sortları üstələdiyi kimi, onun saxlanması da fərqlidir. Yararsız yal-yamacı, dərə kənarlarını çəpərləyib, sahmana salıb borularla su çəkmiş Musa müəllimin sağ qolu qəlpə yarasından şikəst idi. Sol qolu ilə 2 hektardan çox alma bağı salmışdı. Digər meyvələri də vardı. Deyirdi ki, bir ili məhsul yaxşı gəldi. 40 tonadək almanı payızda anbara yığdıq. Çatdırıb bazarda hamısını sata bilmədim. 20 tonadək qış qızılı qaldı. Növbəti payızda baxdım ki, qış qızılı alması tam şirəyə dolub. 50 ildə az qala min tondan çox alma satmışdım. Qış qızılı ikinci ilə keçsə də, bazarda alıcılar məhz bu meyvənin növbəsinə dayandılar. Az alan 10-15 kiloqram alırdı. 10 günün içərisində hamısı satıldı. Bilən olmadı ki, bu, ikiillik məhsuldur. Bax, qış qızılının üstünlükləri belədir. Mənə vaxtilə dərs deyən Musa müəllimin tövsiyəsini əsas tutaraq mən də qış qızılına üstünlük vermişəm. Qonağım gələndə süfrəmizin ilboyu bəzəyi olur. Odur ki, diyarımızın dağlıq kəndlərində bu sortun əkilməsi çox faydalıdır. Hətta qızılqarın kəpənəklər qış qızılına yumurta atsalar da, qabığına gücü çatmır, meyvə öz saflığını qoruyur.

***Qaşdar ƏLİYEV***
***aqronom-fenoloq***

## Yay otlaqlarından, biçənəklərdən səmərəli istifadə olunması məqsədilə ekoloji-hüquqi maarifləndirici tədbirlər keçirilir

*Muxtar respublikamızda torpaqların münbitliyinin artırılması, heyvandarlığın yem bazasının möhkəmləndirilməsi, təbii yem sahələrinin mühafizəsi, otlaqların geobotanik zənginliyinin qorunub saxlanılması mühüm iqtisadi və ekoloji əhəmiyyət daşıyır. Nəzərə alsaq ki, yay otlaq sahələrimiz yalnız 29 min 736 hektardır, onda torpaqların yem ehtiyatlarının qorunması və bərpası tədbirlərinin önəmi daha da artır.*

Ona görə də yay otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması məqsədilə həyata keçirilən ən mühüm tədbirlərdən biri kimi ekoloji-hüquqi maarifləndirici və məlumatlandırıcı tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi aidiyyəti dövlət orqanları ilə birlikdə sahibkarlarla, fermerlərlə, fərdi təsərrüfat sahibləri ilə otlaq və biçənək ərazilərində görüşlər keçirir, otlaqlardan düzgün istifadə edilməsi, torpaqların münbitliyinin bərpası və artırılması sahəsində mövcud qanunvericiliyin tələbləri onlara izah edilir. Cari ilin may, iyun, iyul və avqust aylarında yay otlaq sahələrində, örüş və biçənəklərdə ekoloji qiymətləndirmə işləri aparılıb, "Batabat", "Qanlı göl", "Keçəl dağ", "Dəmirli yurdu" və "Göy-göl" ətrafı yaylaqlarda ekoloji-hüquqi maarifləndirici tədbirlər davam etdirilib.

İstifadəçilər bilməlidirlər ki, bu sahədə görülən işlərin yeganə məqsədi ondan ibarətdir ki, otlaqlarımızın yem ehtiyatlarını qoruyaq, torpaqların şəhralaşması kimi problemlərin yaranmasına imkan verməyək. Bu sahənin qanunla tənzimlənməsi qaydalarına uyğun olaraq, inzibati tədbirlərin görülməsindən əvvəl hər bir sahibkar düşünməlidir ki, örüş və otlaqlardan düzgün istifadə edilməməsi gələcəkdə bu sahədə təsərrüfat fəaliyyətini məhdudlaşdıracaq.

Yay otlaq sahələrində, örüş və biçənəklərdə bu sahədə fəaliyyətin tənzimlənməsi məqsədilə ekoloji monitorinqlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

*İdman sahəsində ən böyük uğur insanın bilik və düşüncəsinin vəhdəti ilə əldə edilir. Biliyə isə tədris vasitəsilə çatmaq olar. Bu iki birləşməni bacaran idmançı istədiyi göstəriciyə nail olmaq imkanına malikdir. Bilik və düşüncədən öncə insan psixologiyasında problemlər olmamalı, ağıl və əqli bacarıqlar bu sahə ilə məşğul olmağa imkan yaratmalıdır.*

## İdmanda düşüncə metodikası

### *İdmançıda əqli yüksəliş*

İnsanın psixoloji halı olaraq fikrin bir obyektə toplanmış və ya fokuslanmış vəziyyəti beyində diqqəti yaradır. Bəs beyin idmanda hansı rolu oynayır? Bəzən peşəkar idmançı olmaq üçün peşəkar mütəxəssisə ehtiyacın olduğu kimi, peşəkar həkimə də müraciət vacibdir. Avropalı alimlər təsdiq ediblər ki, hər məşqdə əqli bacarıqlar üzərində işləməklə onların imkanlarını artırmaq mümkündür. Qısası, insan öz əqli bacarığının 5 faizindən istifadə etmək gücünə malikdir. Bu isə idmançıların daha uğurlu çıxış etməsinə zəmin yaradır.

Son illər Azərbaycanda da məşqçilər "idmanda düşüncə" adlı yeni tədris planı hazırlayıblar ki, bu da heç Avropadan geri qalmır. İdmanda düşüncə nədir? Hər tədrisdən öncə idmançılarla 10-15 dəqiqə ərzində nəzəri və praktik formada dərs keçilir. Bu zaman məşqçilər yetirmələrinə suallar ünvanlayır, fərdi cavablar alındıqdan sonra bütün komanda üçün konkretləşmiş cavab müəyyən edilir və məşqə start verilir.

### *Nəzəri və praktik tədris*

İdmanda düşüncə özlüyündə iki yerə bölünür:
- *mənəvi düşüncə;*
- *peşə düşüncəsi.*

Məşqçilərin fikrincə, bu düşüncələr idmançının özünü dərk etməsinə, onun şəxsiyyət kimi formalaşaraq fəaliyyət göstərməsinə zəmin yaradır ki, bunun nəticəsində cəmiyyət fədakar insan və idmançı qazanmış olur.

***Mənəvi düşüncə:*** Bunu anladıqca idmançı özünü dərk etməyə başlayır, insanın dərk halı isə psixikanın yüksək halı hesab edilir. İdmançı mənəvi olaraq yüksələrkən o dərk etməyə başlayır ki, dünya və həyatın gözəlliyi onun üçün yaradılmışdır və o, bunu qorumalıdır. Onun hər bir çıxışı, arenada yüksəlişi yeni bir sənət əsəri yaratmaqdır. Nəhayət, idmançı dərk edir ki, onun gördüyü hər bir iş, qazandığı hər bir uğur özü üçün yox, vətən, xalq naminədir. Bu anda o, insanlıq missiyasını praktik olaraq yerinə yetirdiyini dərk edərək fəaliyyət göstərir. Nəticə: idman həm dünyanı, həm də insanlığı məhvdən qoruyan insan yaratmış olur.

***Peşə düşüncəsi:*** Adından da göründüyü kimi öz peşəsini əhatə edir. İdmançının peşəsi ətrafında düşünməsi ona hər vəziyyətdən çıxış yolu tapmaq bacarığı aşılayır və eyni zamanda ona operativ fikirləşmək, düzgün qərar çıxarmaq bacarığı verir.

Hər bir idmançı peşə yüksəlişinə axtarışlar, yeniliklər etməklə çata bilər. İdmançı hər an sevdiyi peşəsini həyatının əsas məqsədi olduğunu düşünməlidir. Yalnız bu halda o, peşə kamilliyinə malik ola bilər. Bunun üçün məşqçilər gündəlik məşqlərdə idmançıya əlçatmaz zirvədə yerləşən arzusuna bir pillə yaxınlaşdığını vizual olaraq göstərməlidir.

İdmanda tədris əvvəlcə nəzəri, sonra isə praktik olaraq icra olunur. Bu tədris üsulu idmançının peşə biliyini daha tez, daha kamil qavramasına böyük təsir göstərir. Düşüncə tədrisinin bugünkü idmana nə qədər vacib olduğunu biz yuxarıda da gördük. Bu gün idman güc mübarizəsindən ağıl mübarizəsinə yönəlib ki, bu da idmançıların, ilk olaraq, şüurlu fərd kimi formalaşmasında müstəsna rol oynayır.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhəri, Heydər Vəzirov küçəsi, ev 6-da yaşamış İsmayılova Zinyət İbrahim qızının adına olan evin texniki pasportu itdiyindən etibarsız sayılır.

**ŞƏRQ** *qapısı*
**Baş redaktor:** TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 655**